## Tənqidçinin Azərbaycançılıq həqiqətləri

# *yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri*



*Əli Rza XƏLƏFLİ*

*(Əvvəli ötən sayımızda)*

Faciənin kökü isə, tədqiqatçının dediyi kimi, *"tənqid qəhrəmanın millilik keyfiyyətlərini onun sinfi təbiətinin xarakterinə görə dəyərləndirməsində"* idi. Tədqiqatçı dərinliklərə endikcə sanki fikir döyüşləri daha da sərtləşir. Və məsələnin əsl mahiyyəti də bu zaman üzə çıxır. Ədəbi tənqid **(X.Əlimirzəyev, A.Əfəndiyev)** *"Qarlı aşırım"*ı inqilaba münasibət müstəvisində, ədəbi qəhrəmanları sinfi təbiətlərinə görə xarakterizə edir. Mənfilik və müsbətlik bölgüləri aparılır. İnqilab və əksinqilab cəbhələrinin sərhədləri göstərilir. Unudulur ki, insan təbiəti konkret siyasi sərhədlərlə məhdudlana bilməz. Qəmlonun *"qəlibəsığmazlığı"* **(Təyyar Salamoğlu)** sanki ədəbi tənqidi çaş-baş qoyur. Hər halda onun qeyri-insani xarakterinin əsas kökləri, psixi tamlığının olmamasının səbəbləri tam açılmasa da, cəmiyyət belə insanlardan xali deyil. Hitler deyirdi ki, heç bir əxlaq prinsipi mənim dünyanı tutmaq planımın qarşısına mane ola bilməz. Yaxud Neron Romanı yandırırdı ki, onu yenidən daha gözəl tikəcək. Yaxud bolşevizmin proletkultçuluq əməlləri, zəkanın-müstəqil düşüncə adamlarının repressiyası... bu sıranı bu və ya digər misallarla xeyli uzatmaq da olar. Ancaq Neronu romalı, Hitleri alman... Qəmlonu da azərbaycanlı olduğuna görə yox, yalnız cinayətkar bir insan olduqlarına görə və qeyri-insani keyfiyyətlərə malik olduqlarına görə ittiham etmək olar. Yazıçı da tənqidçinin qeyd etdiyi kimi, Qəmlonun xarakterini nə sinfi təbiəti, nə də milli mənsubiyyəti ilə bağlamır. Bu gün müasir dünyanın təbiəti demokratizmi ona görə çıxış yolu hesab edir ki, təsadüfi adamların - Qəmloların... əlinə səlahiyyət pultu keçməsin. Bir vaxt Nazim Hikmət nüvə silahı və təsadüfi adam problemini havayıdan ədəbi düşüncəyə gətirməmişdi. Hər halda Təyyar Salamoğlu Qəmlo obrazının açımına özünəqədərki müəlliflərdən ən çox yaxınlaşanıdır. Əlbəttə, burada söhbət yaxınlaşmaqdan gedir, çatmaqdan yox...

Təyyar Salamoğlu həm Kərbəlayı İsmayıla, həm Abasqulu bəyə münasibətdə tənqidin onilliklər boyu münasibətini izləyir. Bu ardıcıl izləmə əsərin milli təbiətini açmaqda tənqidi düşüncə ilə estetik düşüncənin bir-birinə yaxınlaşma məqamlarının müşahidə imkanlarına çevrilir. Başqa sözlə, mükəmməl, milli ruh daşıyıcısı olan obrazlar tənqidin inkişafına, hərəkətinə də şərait yaradır.

70-ci illər tənqidinin Kərbəlayi obrazını Qəmlo obrazı ilə eyni müstəvidə təhlil etməsi tədqiqatçının nəzərindən yayınmır. Sonra Təyyar Salamoğlu ədəbi tənqidin münasibətindəki inkişafı həssaslıqla izləyir: *"80-ci illər tənqidinin diqqətəlayiq cəhətlərindən biri budur ki, o, Kərbəlayını xarakter baxımından Qəmlo ilə yox, Abasqulu bəylə eyni müstəvidə təhlilə cəlb edir. Bu isə nəticə etibarilə ona gətirib çıxarır ki, indi tənqid "Qarlı aşırım"da ayrı-ayrı obrazların sinfi təbiətini millilikə işıqlandırmağa can atmır, əksinə, romanda "milli psixologiyanın ümumiləşdirici keyfiyyətləri"nin estetik təzahürünü müşahidə edir. Tənqidin müşahidə etdiyi bu cəhət onunla əlamətdardır ki, romanın dramatizmini şərtləndirən bədii konfliktin kökünü açan səbəbləri tarixi həqiqətə uyğun şəkildə görməyə bizə imkan verir".* Professorun *"bədii konfliktin kökünü açan səbəblər"* axtarışında *"tarixi həqiqət"*ə istinadı istər-istəməz bundan sonra diqqət mərkəzində olacaq. Əvvəla tədqiqatçının diqqətə çəkdiyi bu amillər əsərə və dövrə obyektiv yanaşma ilə bağlıdır. Əslində, əsərin estetik mahiyyətini açmaq üçün əsas şərt elə bu yanaşmadır. Ümumiyyətlə, Təyyar Salamoğlunun tənqidi özündən əvvəlki ədəbi-tənqidi düşüncənin ən yaxşı ənənələrinin davamı olduğu kimi, həm də çağdaş ədəbi-tənqidin istiqamətləndirilməsi üçün tənqid tariximizin sağlam əsaslarına söykənən yaradıcılıq bazasıdır. Tarixi həqiqətdən imtina tənqidçini tərksilah edir. Tarixi həqiqət isə hadisələrdən çox milli varlıq və onun bədii yaradıcılıqda sözlə ifadəsidir. Təsadüfi deyil ki, tədqiqatçı yerindəcə düşüncələrinə güc verən ədəbi tənqidə istinad edir. Bu, Akif Hüseynovun qənaətləridir: "...*Kərbəlayı İsmayılda da, Abasqulu bəydə də biz təmkinlilik, öz ləyaqətini gözləmək xüsusiyyətlərini müşahidə edirik. Bunlar elə təsvir olunmuşdur ki, milli psixologiyanın ümumiləşdirici keyfiyyətləri kimi nəzərə çarpır. Hər iki surətdə namus, qeyrət hissi güclüdür"* **(11, 179).** Göründüyü kimi, A.Hüseynov da milli xüsusiyyətləri obrazların əsas keyfiyyəti kimi görür. Milli psixologiyanın əsas şərti insanın, bir fərd olsa da etnosun əsas xarakterik cizgilərini özündə əks etdirməsidir. Azəri türkü ləyaqət - namus, qeyrət, dostluğa sədaqət, verilən sözə canı bahasına olsa da, əməl etmək... kimi keyfiyyətləri özündə ehtiva edir. Professor Salamoğlu da ədəbi-tənqidin milli varlığa bu yöndən yanaşmasını təqdir edir. Və bu zaman milli varlığın daşıyıcısı kimi Abasqulu bəy və Kərbəlayı İsmayıl obyektivdə qabarıq görünür. İnsani keyfiyyətlərdən məhrum olanın (Qəmlo) hansı etnosa mənsubluğunun əhəmiyyəti yoxdur: *"Maraqlıdır ki, tənqid Abasqulu bəyi və Kərbəlayı İsmayılı "milli psixologiyanın ümumiləşdirici keyfiyyətlərinin" daşıyıcısı kimi ümumiləşdirəndə, Kərbəlayı İsmayılla Qəmlonun xarakter baxımından tamam fərqləndiyini, birincisinin millətin əsas keyfiyyətlərini özündə simvollaşdıran obraz, ikincisini isə adi insani keyfiyyətlərdən məhrum olan obraz kimi xarakterizə etməyi də unutmur. Məhz bu zaman obrazların təbiətinə analitik nüfuzda sinfilik tamamilə arxa plana, millilik isə önə keçir. 80-ci illər tənqidi milliliyi romanın bütövlüklə ideya-məzmununda, xarakterlərin inkişaf dinamikasında, süjetin hərəkətində, xarakterlərin tale yolunun müəyyənləşməsində çıxış nöqtəsi kimi alır, elmi dəyərləndirmədə onu aparıcı meyara çevirir"* **(səh.13-14).** Göründüyü kimi, burada sinfi münasibət yox, insanın xarakterinə görə münasibət əsasdır.

Təyyar Salamoğlunun ədəbi tənqidlə **(xüsusilə, A.Hüseynovun düşüncələri ilə bağlı)** əlaqədar qeyd etdiyi *"deyilməsi vacib olan həqiqət, deyilməsi mümkün olan həqiqət"* tezisi aforizm kimi səslənir, həyat düsturu kimi yadda qalır, oxucuda həyat və cəmiyyət, insan və cəmiyyət, tarix və biz **(müasirlik)** qarşılaşmalarında dərin düşüncələrə rəvac verir, dərin təəssürat yaradır.

Tədqiqatçı tənqidin romanda *"etik motiv"*i qabartmasına **(Y.Qarayev)** münasibət bildirir: *"Müəllifi sinfi toqquşmaların təsvirindən daha çox bu toqquşmaya qoşulanların ürək dünyası və mənəvi ovqatı, onların hərəkətlərini şərtləndirən daxili impulslar maraqlandırır".* Bu sözlər *"Qarlı aşırım"* romanının müəllifi haqqında Yaşar Qarayevin ümumiləşdirici qənaətidir. Və tədqiqatçının qənaətinə görə tənqid yenə öz sözünü axıracan demir, bəlkə də deyə bilmir. Ancaq bizə elə gəlir ki, Yaşar Qarayev inqilab səddini aşa bilməsə də məlum həqiqətə ən çox yaxınlaşa bilən tədqiqatçıdır. Ədəbi-tənqid və tənqidçi bütün hallarda inqilabın toxunulmazlıq statusunu qoruyur. Təyyar Salamoğlunun mövqeyi isə başqadır: *"Sovet hökuməti və milli varlıq qarşıdurmasında çox qanlar tökülmüşdü. Romanda bu tökülən qanların səbəbi heç də Kərbəlayı İsmayılın qaldırdığı qiyamda axtarılmır. İnqilab-Kərbəlayı İsmayıl qarşıdurmasında inqilaba "haqq işi uğrunda mübarizə" statusu verilmir. Kərbəlayı İsmayılı qiyama aparan yollar heç də tənqidin izah etdiyi kimi, mal-dövlət hərisliyindən, yaxud onun mülkədar-istismarçı təbiətindən irəli gəlmir. Fikrimizcə, roman tamam başqa bir əhval-ruhiyyə ilə yazılmış, əsər üzərində işləyərkən yazıçı tamam başqa bir ahəngə köklənmişdir. Olsun ki, romanı yazarkən Kərbəlayının Usuboğlunun qapısına gedərkən geydiyi kəfəni, ilk öncə, F.Kərimzadə özü geyinmişdir. Çünki bu romanın daxili qatlarında müəllifini dar ağacına apara biləcək çox mətləblər əks olunmuşdur"* **(səh.15-16).** Tədqiqatçının həssaslıqla qələmə aldığı bu mətnin özündə həyəcan doğurucu bir ovqat var. Bu ovqat cümlə-cümlə düşüncəyə çevrilərək oxucunun da ruhuna hopur. Oxucunu daha gərgin psixoloji məqamların təhlilinə hazırlayır.

Yaradıcılıq sirrini açmaq baxımından bir təəssüratı yada salıram. Mənim **"Od"** romanımda Aruz Alp Ərin - əsərin qəhrəmanının yuxusunda yandırılma ilə edam səhnəsi var. Bu, Aruzun yuxusudur. Dostlarımdan biri həmin əsəri oxuyandan sonra mənə dedi ki, sən həyatda o duyğunu bu və ya başqa cür öz üzərində hiss etmisən: *"...Əhsən! Bu, doğru yoldur. Haqsızlar üçün ən yaxşı cəza yoludur. - Aruz qışqırdı. Onun səsini başqası eşitməsə də, özü yaxşı eşitdi.*

*- Gördünmü, - kütlə Ponti Pilatın yerində əyləşmiş anasına üzünü tutdu. O, özü də bilir ki, yeganə çıxış yolu onun yandırılmağıdır. Gərək onu danışdırmayasan. Danışdırsan min cür yol tapacaq. Gərək onu edama çəkməzdən əvvəl dilini kəsəydik.*

*...Aruz yuxunun əzablarından qurtarmaq, ayılmaq istəyirdi. Hiss edirdi ki, bütün bunların hamısı yuxudur. Amma yuxu özü onun yaxasından əl çəkmirdi.*

*Bütün iradəsini toplayıb yuxu aləminin özündə olsa belə, həyatı olduğu kimi görmək istəyirdi. Amma get-gedə çoxalan kütlə heç nəyi eşitmək istəmir, hətta bu mühakimələri də, sorğu-sualları da qurtarmağı tələb edir. Bir sözlə, aşağıda üst-üstə qalaqlanmış odunları yandırmağa çağırırdı.*

*Aruz düşündü ki, indi od vuracaqlar. Hələ ocaq başdan-başa alışmamış, onu yandırmamış nəsə demək, kimisə inandırmaq istəyi keçdi onun düşüncəsindən. Amma nə desin? Burda onu dinləməyə səbiri, təmkini çatan vardımı, kimsə olacaqdımı? Alov onu ayağından yandırmağa başlayacaqdı. Yanğıların əzabına tab gətirəcəkdimi? Axı od insanın həyatını xilas eləmiş, varlığını qoruyub saxlamışdı. Əgər belədirsə, onda gərək od insanı öldürməsin. Amma yox, od zaman-zaman həm də insanların qətli, ölümü üçün vasitə olmuşdur. Ölüm onun harasından gələcəkdi? Nə vaxt öldüyünü hiss edəcəkdi? Bədəninin yarısı yana-yana, qalan yarısı hələ düşünəcəkdi, Ağrıları, yanğıları canında hiss edəcək, bəlkə, qışqıracaq, bəlkə də, kimisə köməyə çağıracaqdı. Amma yox, elə adamlar olub ki, belə yanğılara davam gətirib.*

*- Kəsin, kəsin onun işığını, onun işığı bizim gözümüzü kor edib. Gözümüzü açıb dünyaya baxa bilmirik. - hansının səsidir? Aruz ayıra bilmədi. Hər halda kütlənin məramını təkrarlayırdı, özü də neçənci dəfə.*

*Aruz asta-asta tərpənən dodaqlarının arasından danışırdı: - Axı niyə? Axı gərək işıqdan qaçmayasan. İşıqdan qaçmaq insan xislətinə aid deyil. Qaranlıq, rütubətli zirzəmilərdə divarlara yapışan balaca yarasalar işığdanqaçmanın mənfi obrazıdır. Çox nahaq yerə. Axı nə üçün yarasanın həyatı onun üçün ikrah doğursun. Yarasanın ki, insana bir ziyanı yoxdur. Onun da həyatı qaranlıqda keçir. Axşam düşəndə, alatoranlıqda özünün qaranlıq yuvasından çıxır, üzgəc pərdələrini açaraq havada uçur. Bəlkə də, insanlara rahatlıq, dinclik verməyən cücüləri, həşəratları ovlayır. Amma bu, özünü insan hesab edən insancığazlar işığı özlərinin düşməni hesab edirlər. - Aruz hələ ki, düşünürdü. Heç özü də bilmirdi ki, düşündüklərini sözə çevirir, ya çevirmir, kimsə onun danışdıqlarını hiss edir, eşidir, ya yox"* **(Ə.Xələfli. Od romanından. Bakı-2012, səh.172-173).** Əlbəttə, şərtiliyi nəzərə alsaq, bu, o deməkdir ki, *"Od"*un həssas oxucusu müəllifin həyatda yaşadığı edamı kifayət qədər başa düşüb. Həmin əsərin ilk oxucusu və *"Ön söz"* yazanı da Təyyar Salamoğludur. Sonrakı tədqiqatlar da bu fikri təsdiq etdi.

Bəli, yazıçı ədəbi qəhrəmanının taleyini bu və ya digər dərəcədə əvvəlcə özü yaşayır. Düşünürəm ki, ədəbi-mənəvi doğmalıq, sözün-sənətin qan qrupu eyniliyini daşımaq baxımından Təyyar Salamoğlu da bu həyəcanları yaşamaqdadır.

### SSQİDSSLSSR, İNAMLAR...

Tədqiqatın ikinci fəsli *"Qarlı aşırım"ın bədii mətn həqiqətləri"* adlanır. Ancaq tədqiqatçı *"Qarlı aşırım"*dan yox, eləcə də nə *"Qarlı aşırım"* zamanından, nə də *"Qarlı aşırım"*ın yazıldığı dövrdən başlamır. Yazıya gələn həqiqətlər daha sonrakı çağların həqiqətləridir. Necə deyərlər, bura zirvədir; üzü keçmişə tərəf nə qədər istəyirsən baxa bilərsən... hər yan və hər şey güzgü kimi görünür. *"Qarlı aşırım"*ı yaradan sənətkar yaradıcı intuisiyası ilə *"Qarlı aşırım"* zamanına ona görə qayıtmışdı ki, tarix bir də təzədən utanclı səhifələr yaratmasın. Ancaq çox təəssüf ki, belə səhifələr yazıldı, yarandı, özü də daha müdhiş, daha eybəcər, daha qarşısıalınmaz bir qəddarlıqla...

Fərman Kərimzadə ilə mənim bir neçə dəfə görüşlərim olub. Ancaq birini yada salıram: 88-ci ilin sonunda mitinqlər dalğası Cəbrayıla da gəlib çatmışdı. Minlərlə insanın yığışdığı mərkəzi meydan dəniz dalğaları kimi uğuldayırdı. Meydanın ən gür vaxtı mən çıxış elədim: *"Arazı yaylıq eləyib, baş-başa verib ağlamağın vaxtı ötüb. İndi kimin daha çox ayıq və çevik olacağından asılıdır; Tarix problemi kimin xeyirinə həll edəcək".* Eləcə də nitqimdə Şah İsmayılı, Dirili Qurbanini, Səttarxanı, Bağırxanı, Səməd Vurğunu, Xiyabanini, Pişəvərini, Xudafərini xatırladım. *"Körpünün həsrəti"* şeirindən məşhur misraları yada saldım. Akif Səmədin *"Arazı yaylığa"* timsal tutan duyğulanmalarından keçib birdən F.Kərimzadənin *"Vedinin yanı dağlar"* bayatısını dedim. Fərmanın *"Azərbaycan"* jurnalında çıxan yazısında göstərildiyi kimi, mindən çox adın dəyişdirildiyini, erməniləşdirildiyini misallarla diqqətə çəkdim.

*(Davamı 9-cu səhifədə)*

# yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri

*(Əvvəli 8-ci səhifədə)*

Çıxış yolunun da ağıl çevikliyində olduğunu, ən güclü silahın da mənəvi birlik və səfərbərlikdən ibarət olduğunu deməklə çıxışımı bitirdim. Başı dumanlandıracaq gücdə alqışlar, təqdirlər az qala yeri titrədib, göyü silkələyirdi. Tribunadan geri çəkilən kimi bir nəfər məni qucaqladı: *"Ay sənin qadan alım, ayə, sən lap yeri-göyü silkələdin ki...".* Doğrusu, özüm də havalı idim. Çıxışa görə təbrik edənlər, kürəyimə vuranlar, əl uzadıb əlimi sıxanlar... Görünür, insanlar azad sözün həsrətini o qədər çəkmişdilər ki, susuz adam su tapanda necə sevinirsə, eləcə sevinirdilər... Amma həmin məni qucaqlayan, sıxlıqdan kənara çəkən, gur, dalğalı saçlı, qalın, ağ-qarası qarışmış lopa bığlı, qırğı gözlü, ortaboylu adam hələ də qolumu buraxmamışdı: *"Bəri gəl, görüm, sən Seyfəddingilin kəndçisi olarsan, aranyaylaq deyirdin tərəkəməsəyaq...".* Doğrusu, mənim işlədiyim qəzetdə ***("Kolxozçu", sonra "Xudafərin" adlandırıldı)*** Seyfəddin adlı həmkarım vardı. Fikrim ona getdi. Ancaq yox, tez məlum oldu ki, o Seyfəddin Mənsim oğlu Məmmədvəliyevi - ağac üzərində oymaçı sənətkar, gözəl də fotoqraf, əslən Böyük Mərcanlıdan olan dostunu nəzərdə tutur. Həqiqətən bizim Xələflinin yaylaq yerləri Böyük Mərcanlılarla Dərələyəz, Qısır, Murğuz, Qırxlar, Arxaşan, Pəri çınqılı, Bazarçay yaylaqlarında yaylayan digər Qarabağ elatları ilə birgə qonşu olub. Görünür, Fərmanı havalandıran həm də mənim o yerlərin ruhu üstə köklənməyim olmuşdu. Mətləbdən kənar düşürəm...

...Fərmanla birgə üçüncü mərtəbəyə, mənim iş otağıma qalxdıq. Məni yanındakı cavanlarla tanış elədi. Tehran Vəliyev, Rüstəm Behrudi... Redaksiyada şöbə müdiri Əmir Abbasov da qonaqları yaxşı qarşıladı.

Hörmətli qonaqların şərəfinə yaxşı bir çay dəstgahı da düzəldi. Mövzu nə qədər zamanla bağlı olsa da, həm də mənim çıxışımdan bəhs olundu. Vaxtın necə keçdiyini də hiss etmədik. Heç onu da bilmədik ki, nə qədər adam yığışıb.

Bilirsiniz, Əlirzanın çıxışının gücü nədədir? - Fərman elə bil ki, hamıdan soruşdu. Ancaq özü də cavab verdi: - Sözü ilə ruhları oyada bilir. *"Söz və ruh qarşılaşması".* - Bu vaxt bir nəfər gəlib **(mülki formada olsa da milis işçisi idi, biz tanıyırdıq)** dedi ki, Fərman müəllimgili prokuror çağırır. Bir qədər narahatçılıq olsa da, bilirdik ki, ciddi heç nə ola bilməzdi. Daha zaman başqa hava çalırdı. **(Sonra Fərmanla ikinci görüşdə öyrəndim ki, prokuror Şamil Bağırov qonaqlara yüksək səviyyədə hörmət, ehtiram göstərib. Həm maddi, həm də mənəvi).** Nə isə, əsas odur ki, Fərman ömrü boyu ruhların diriliyinə inanmışdı. Ona da inanmışdı ki, ruhların dirilib millətə güc verməsi üçün sehirli söz gərəkdir. O, bir yazıçı, sənətkar kimi artıq sözün gücünü və qüdrətini kifayət qədər bilirdi. *"Vedinin yanı dağlar"* bayatısı və bu bayatının motivləri əsasında yazılmış publisistik əsəri onun yeni roman layihəsi idi. Bəlkə də, xüsusi bir instinktin təsiri altında layihənin publisistik variantını zamanın tələbi kimi çap etdirmişdi. Biz də onu mitinq dərsliklərindən biri kimi oxumuşduq. Həmin yazının təsirindən vaqonda onunla üzbəüz əyləşmiş, Vediyə ilk dəfə gedən üzü civzəli gəncin yönü dağlara tərəf əlini qulağına verib bayatını zilə çəkməsi indi də gözlərimin qabağındadır: *"Burda bir el var idi, siz deyin, hanı, dağlar?"...* Alim Qasımov hərdənbir o bayatını indi də oxuyur. Ancaq o vaxtkı yanğı tamam başqa cür alovlanırdı...

Təyyar Salamoğlu Fərmanla birgə sanki tarixin daha bir qarlı aşırımında - zirvədə dayanıb zülm və əzabla, ölümlərin və qanların üstündən keçib daha bir fəlakət aşırımınacan gələn yolun gerisinə də, gələcəyinə də baxır, özü də çox diqqətlə, can yanğısı ilə: *"Qarlı aşırım"da hadisələrin cərəyan etdiyi məkan F.Kərimzadənin qoynunda doğulub-böyüdüyü, ata-babalarının yaşadığı, ulu babalarının qəbirləri yerləşən Vedi mahalıdır. "Mən bu yerdə doğulmuşam" - deyən F.Kərimzadə öz yurdunun vurğunu kimi, onun tarixini araşdırmış, dünyanın dəyişməyə başladığı zamanda, xalqımız böyük bir sınaq qarşısında qalanda - erməni vandalizmi iç üzünü növbəti dəfə göstərməyə başladığı 80-ci illərin sonunda "Vedinin yanı dağlar" adlı irihəcmli "etnoqrafik eskizlər" adlandırdığı yazısını "Azərbaycan" jurnalında çap etdirmişdir. Vedinin tarixini tədqiqatçı səriştəsi ilə araşdıran sənətkar yazırdı: "Böyük Vedinin adına 1514-cü ildə tərtib edilmiş "Sultan Səlimin səfər ruznaməsi"ndə rast gəlirik. Orada deyilir ki, 1514-cü il iyul ayının 26-da Sultan Səlim qoşunları Böyük Vedi ilə Kiçik Vedi arasında düşərgə saldı. Həm də "köy" yox, "kənd" yazılıb". Böyük Vedi ilə Kiçik Vedi kəndlərinin arası 15 kilometrdən çoxdur. Sultan Səlimin Şah İsmayılla döyüşə gedən ordusu bu ərazidə çadırlarını qurmuşdu"* **(səh.16).** F.Kərimzadə bu cümlələrlə sanki yurdunun XVI əsrin əvvəllərindəki xəritəsini çəkir.

Əsil Vətən sevdalısı, mənsub olduğu etnosun daşıyıcısı kimi, ziyalının daxili-mənəvi mühitindən gələn və onu daim fədakarlığa, can yanğısına çağıran bir hiss var: milli-əxlaq, millətin namus yükünü çəkmək...

F.Kərimzadənin bir ziyalı, yurd vurğunu kimi, təbiətini dərk etmək üçün bu etnoqrafik araşdırmaları kifayət qədər yetərli mənbədir. Göründüyü kimi, o, ciddi tədqiqatlar aparmış, tarixi mənbələrə baş vurmuşdur. Bəlkə də, onun əsərlərinin alt qatlarında gizlənən sirlərin bir çoxunun açarı məhz bu qeydlərdədir. Faktdan, tarixi hadisədən bədii sözə... Şübhəsiz, T.Salamoğlunun bu araşdırmalara can atımının əsas səbəblərindən biri də budur: *"Sorağı neçə yüz illərdən gələn tarixi torpaqlarımızda yaşayan insanların ən müsibətli günləri sovet hökumətinin gəlişi ərəfəsinə və illərinə düşür. Azərbaycan xalqının öz tarixi torpaqlarından zorla köçürülməsinin tarixi F.Kərimzadənin qan yaddaşında özünə əbədi yer eləyib. "Hamı üçün Vətən Moskvadan başlansa" da, F.Kərimzadə üçün Vedibasardan başlamışdı və bu Vətəni onun əlindən sovet hökuməti almışdı. "Vedinin yanı dağlar"da F.Kərimzadə ürək qanı ilə yazırdı: "Xalqın yadında qalan ən dəhşətli köçürmə 1919-cu ildə olub. Beş daşnak generalı ilə ikiillik döyüşdən sonra Abbasluqu bəy Şadlinski cəbhəni yararaq eli sağ-salamat Cənubi Azərbaycana aparıb. 1921-ci ildə isə yenidən geriyə qaytarıb. Sonuncu köçürülmə isə 1938-ci ildə SSRİ Nazirlər Sovetinin qərarına əsasən başlayıb. 1940-cı ildə əhalinin bir hissəsini zorla, məcburi surətdə Qazaxıstana və Qırğızıstana sürgün ediblər... Köçürmə 1952-ci ilə qədər davam etdi. Şəxsiyyətə pərəstişin baş ilhamçısı vəfat edəndən sonra köçürülmə dayandırıldı. Amma bu müddət ərzində 800 min nəfər azərbaycanlı köçürülmüşdü. (15, 131-132). F.Kərimzadənin ailəsi 1951-ci ildə köçürülənlər arasında olmuşdur"* **(səh.16-17).** Ruh etibarilə hiss və həyəcanlarımı oyadan məqamlara mən xüsusi rəğbətlə yanaşıram. Bu ümumi məlumatlardan sonra tədqiqatçı Təyyar Salamoğlunun *"Hüdudsuz yurd-yuva, el-oba həsrətinin"* necə bir dərd olduğunu, bu dərdi bir xalqa cəza kimi bəxş edən rejimdən qisası ancaq sözün ala biləcəyi həqiqətini ifadə edən cümləsi sanki mənim də ürəyimdən tikan çıxardı: *"F.Kərimzadə səsi tarixin yüz illiklərindən gələn, var olan bir elin



yox olmasını sovet hökumətinə bağışlaya bilməzdi və bağışlamadı da. "Qarlı aşırım" sovet siyasi rejimi ilə milli tarixi varlığın qarşılaşmasının obyektiv, tarixi həqiqətlərə uyğun şəkildə əksini verən bir əsərdir"* **(səh.17-18).** Doğrusu, bu cür milli ruhu, tarixi varlığı oyadıb, onu həm də bizimlə ünsiyyətə gətirmək, sözü duymaq, sözü canlı kimi qavrayıb onunla ünsiyyətə girməyi bacarmaq, yazıçı əzabına şəriklik, yəni Tanrının bəxşi olan istedadla nə qədər bağlıdırsa, tarixi sözün, elmi hökmlərin altında gizlənmiş həqiqətləri duymaq, özü də bir ayrı keyfiyyətdir - elmi idrakın gücünə söykənən keyfiyyətdir.

Tədqiqatın özünə gələk: *"Romana verilən tənqidi təfsirlərdə "Kərbəlayı İsmayıl, onun kimi əlavə qanlara səbəb olan digər inadkarların mənasız mübarizə və müqavimət"indən danışılır, "Kərbəlayının səltənətinin uçub-dağılması" tarixi qanunauyğunluq kimi şərh olunur və hökm verilir: "Tarix onun taleyini artıq çoxdan həll edib" (17, 131). Bu cür təfsirin məntiqi sovet hökumətinin Azərbaycana gəlişinə qanunauyğunluq statusu qazandırır. Tökülən qanların günahı qiyam qaldıran Kərbəlayı İsmayılın üzərinə qoyulur"* **(səh.18).** Təkcə elə bu cümlə bəs eləyir tədqiqatçı sübut eləsin ki, Kərbəlayı İsmayılın mənəvi bəraəti çoxdan verilib. Necə deyərlər, həqiqətin cidası o qədər uzundur ki, onun bir ucunu tarixin bir tərəfində nə qədər ört-basdır eləsən də, o biri ucu tarixin tamam başqa zamanında üzə çıxacaq. Boğulub öldürülməyə cəhd edilən, yarımcan hala salınmış olsa belə, ancaq heç vaxt öldürülməsi mümkün olmayan... həqiqətlər beləcə dil açıb danışır. Tədqiqatçının dediyi kimi, təfsir bir qədər sərt desək, daha böyük cinayətə haqq qazandırır. Necə ki, bu gün ərəb işğalına hələ də haqq qazandırmaq cəhdləri davam edir.

İndi saat düz 05.15-dir. Azan səsi iş otağımda da aydın eşidilir. Həzin, ürəkyaxıcı bir səsdir. Sanki bu səsdə bir rəhmə çağırış, bir barış ruhu duymaq istəyirəm. Yazını yarımçıq qoyub, televizoru açıb kanalları dəyişirəm. Xəbərlərdə *"Allahu-Əkbər"* sədaları ilə nəhəng Gorda - qılınc qalxır, enir; bir anda baş bədəndən ayrılıb kənara düşür. Açıq gözlər bərəlir... Türkiyədə də terror, Avropada terror, Azərbaycan əleyhinə separatçılar Moskvada üfunət püskürürlər, Yerevanda aksiyalar, İranın *"Səhər"* kanalı bizdə az saylı xalqlara ögey münasibətimizdən bəhs edən müsahibə verir, yalanlar, iftiralar baş alıb gedir. Tədqiqatçı sözün, sənətin, tarixin ibrət güzgüsü olduğunu bildiyindən həqiqətlərin üzərindən örtüyü cəsarətlə götürür: *"Roman sovet hökumətinin xalqı, el-oba camaatını "lüt"lərə və varlılara bölüb, onların arasına təfriqə, düşmənçilik toxumu səpməsini, varlıların qanının "lüt"lərə halallığını sezilmədən, bəzən isə açıq-aşkar aşağı təbəqənin beyninə yeridilməsini bədii təhlil müstəvisinə gətirir. F.Kərimzadə sovet hökumətinin yerlərə nüfuzunu humanist münasibət, xilaskarlıq tülünə bürümür. Sovet hökumətinin öz varlığını qan üstündə bərqərar etməkdə, ona tabe olmayanların qanını tökməkdə israrlı olduğunu əks etdirir. Romanda yeni hökumətin rəmzi kimi ortalığa çıxan qırmızı bayraq hökumətə tabe olmayanların tökülən və töküləcək qanlarının simvolu kimi mənalanır"* **(səh.18).** İŞİD də bu gün həmin yoldadır. Türkiyəyə, Azərbaycana, Qarabağa... ərazi iddiaları saxta fitvalarla müşayiət olunur. Bu yerdə qeyd etməliyəm ki, professor Təyyar Salamoğlunun bu tədqiqatı yalnız tarixi əhəmiyyət daşımır, müasir insanın - müasir azərbaycanlının bəsirət gözünü açmağa xidmət edir. Dövrün ən güclü alimlərinin belə təfsir zamanı buraxdığı səhvlər son nəticədə geriyə qayıdan daş kimi millətin başına düşür. Tədqiqatın praktik əhəmiyyəti həm də bu günün özü ilə səsləşməsindədir. Tədqiqatçı romanda milləti parçalayan motivin psixoloji köklərini, elmi müşahidələrlə, elə əsərin özünə söykənərək dəqiq detallarla açır. Sovet quruluşunun idbar mahiyyəti elə kökündən parçalama, bu yolla milləti gücdənsalma istəyi ilə bağlıdır. Varlıları millətdən ayırıb kasıbları qızışdırıb qızarmış dəmirə döndərmək, sıyrilmiş qılınca çevirməklə rejimi möhkəmlətmək, ömrünü uzatmaq... budur məqsəd! Onsuz da sonralar mahiyyətcə Sovet Hökuməti də varlı və kasıb zümrələrinə bölünmüşdü. Hədsiz hakimiyyətə güvənən partiya elitası və məmurlar şəbəkəsi rüşvət və korrupsiyaya qurşanmış, həm də maddi bazaya və siyasi gücə sahiblənməklə xalqı itaətdə saxlayan diktatura yaratmışdı.

Tədqiqatçı Kərbəlayının düşüncələrini verir. İnqilabın ayırıcılıq, yaxşı nə varsa, ayaq altına alınması, bir sözlə, *"dünyanın xəlbirlənməsi..."* məsələləri özünü dərk edən, millətin genetik gücündən ayrılmamış insan üçün həzm olunan deyildi. Və Kərbəlayı İsmayıl da bunları uda bilmirdi. Tədqiqatçının dediyi kimi, ədəbi tənqid Kərbəlayının barışmazlığını xüsusi mülkiyyət ehtirası ilə bağlasa da, əslində, burada da qeyri-insani heç nə yoxdur. Hərçənd ki, tənqidin ideoloji cəmiyyətə güvənən sözü Kərbəlayını qamçılamaqda davam edirdi. Ancaq unudurdular ki, həmişə el-oba içində hörmət-izzət sahibi olan bir adama qarşı saygısızlığı etiraz üçün xüsusi mülkiyyət ehtirasından daha güclü amildir. Tədqiqatçı da demək istəyir ki, hansı siyasi hakimiyyət insanla insan kimi davrana bilmirsə, demək, yaşaya, uzunömürlü də ola bilməz. Amma hər halda Kərbəlayı İsmayılın qiyamı məcburiyyətlə özünün mənəvi iflası **(Abasqulu bəyin öldürülməsi ilə bağlı peşmançılıq hissləri və s.)** ilə nəticələnsə də onu qiyama sövq edən haqsızlığın həddini aşmasıdır.

Bu qeydləri yazdıqca düşünürəm ki, tədqiqatçının Abasqulu bəy, Xəlil, Səməd, Şıxəli oğlu, Şirəli Şabanzadə, Talıbov, Kərbəlayı İsmayıl, İman **(xüsusilə, Kərbəlayı İsmayıl və İman arasında namus məsələsi ilə bağlı dialoqda görünən azərbaycanlı xarakteri),** Məhərrəm, Vəli, Qəmlo... və digərləri haqqında nə üçün sarsılmaz bir eşq və istəklə danışmasının, sanki ən kiçik epizodu, ən az adı çəkilən obrazı belə diqqətdən kənarda qoymamasının səbəbləri haradan gəlir? Zənnimcə, bunun əsas səbəbi elə tədqiqatçının söykəndiyi romanın özündəki bədii mətn həqiqətləridir ki, bu həqiqətlər də dəqiq, qabarıq cizgiləri ilə işlənmiş canlı **(sözlə canlanan)** insanlarla, obrazlarla bağlıdır. Əsərdəki canlılıq tədqiqata da keçir.

*(Davamı var)*